# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**“Qarabağ Azərbaycandır” məqsədli qrant**
**müsabiqəsinin (AEF-MQM-QA-1-2021-4(41) qalibi**
**olmuş layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 5-ci mərhələ)**

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **İşğaldan azad olunmuş ərazilərdə davamlı turizmin təşkili istiqamətləri və iqtisadi səmərəliliyinin qiymətləndirilməsi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əhmədov Rəşad İsmayıl oğlu**
Layihənin nömrəsi: **AEF-MQM-QA-1-2021-4(41)-8/06/2-M-06**
Müqavilənin imzalanma tarixi: **16 noyabr 2022-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 dekabr 2022-ci il - 01 dekabr 2024-cü il**
*Layihənin **V mərhələ** üzrə (rüb) məbləği: :*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

**1** Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər**

*(burada doldurmalı)*

Tədiqat işinin əsas istiqamətlərindən olan işğldan azad olunmuş ərazilərdə Turizm Rekrerasiya Zonalarınln təşkili və onun daxilində klasterlərin formalaşdırlması imkanları üzrə aparılmışdır. İşğaldan azad olunmuş ərazilərdə TRZ təşkilində əsas bazası olan resursların qiymətləndirlməsi aparılmış və mühüm nəticələr əladə edilmişdir. TRZ resurs potensilaının qiymətləndilməsində müqayisə, reytiq, infoqrafiya, klaster və çox kriteriyalı qiymətləndirmə metodlarından istifadə olunmuşdur. Tədiqat regionunda reytinq qiymətləndilməsində aşağıdakı yanaşmalara üstünlük verilmişdir:

-resurslarla təminat səviyyəsində üstünlüklər;
-resursların kefiyyət və kəmiyyət gösəricilərinə görə reytinq qiymətləndilməsi;
-resursların təsnifatı əsasında reytinq yanaşmasının tətbiqi;
-resursların cəlbedicilik amillərin nəzərə almaqla reytiq qiymətləndilməsinin tətbiqi.

İşğaldan azad olunmuş ərazilərdə reytinq qiymətləndirilməsində resursların təminat səviyyəsinə görə ərazilər əsasən dörd istiqamətdə müəyyən edilmişdir. Belə ki, regionda sağlamlıq, mədəni turizm istirahət, ekoloji və açıq hava, işgüzar və konqres turizm sahələri üzrə indiqatorlar əsasında təhlil edilir. Sağalmlıq və müalicə turizmin təşkili baxımından Kəlbəcər (İstisu, Zülfüqarlı, Bağırsaq və s.),

Laçın rayonları (Minkənd, Nurəddin su və s.) və Şuşa rayonu (Turşsu, Şırlan və s.), Zəngilan rayonu (Qaragöl ətrafı) xüsusilə seçilir. Qeyd olunan ərazilərin zəngin mineral və termal su mənbələrinin olması, fitomüalicənin təşkili imkanları, istirahət və sağlamlıq turizmin cəlbedicilik amillərinin üstünlüyün xüsusilə qeyd etmək olar. Bununla yanaşı, sağlamlıq turizmin müxtəlif sahələrinin inkişafında qeyd olunan ərazilər digər bölgələrdən daha üstündür.

Reytinq qiymətləndilməsinin mədəni irs resursları baxımından üstünlük təşkil etməsi daha çox Kəlbəcər rayon (Vəng, Zar və s. kəndləri), Şuşa şəhəri, Xocavənd rayonu (Hadrut qəsəbəsi, Tuğ, Tağlar, Azıx və s. kəndləri), Ağdərə rayonu (Çərəkdar, Dovşanlı, Suqovuşan, Çıldıran və s. kəndləri), Laçın rayonu (Ağoğlan, Sultanlar, Zeyvə və s. kəndləri), Ağdam rayonu (Şahbulaq kəndi) xüsusilə seçilir və cəlbedici tarixi-mədəni irsə malikdir.

Ekoloji və açıq hava fəaliyyətləri ilə bağlı resursların reytinq qiymətləndilməsində Kəlbəcər rayonun dağ kəndləri, vulkanik göllər, Tərtər, Həkəri çay dərəsinin kanyonların, həmçinin Tətərin qolu olan Tutqun, Ağdaban çayları, Həkərininin qolu olan Hoçaz çayının dərin kanyonların, Şuşa ətrafı, Tağlar və Azıx kəndi, Kəlbəcərin Zar kəndində olan mağaraları, piyada gəzintilər üçün xüsusi əhəmiyyət kəsb edən təbiət ərazilər daha çox cəlbedici sayılır. Həmçinin Suqovuşan, Sərsəng, Xaçın, qarqarçay, Güləbird və s. su anbarlarının ətrafındakı ekzotik təbiət abidələrinin turizmdə istifadəsi mükündür.

Müqayisəli qiymətləndirmə metodunda işğaldan azad olunmuş ərazilərdə reytinq qiymətləndilməsində nəzərə alınan indiqatorların üzrə aprılmışdır. Müqayisəli təhlillərdən məlum olur ki, işğaldan azad olunmuş ərazilər üzrə turizm növlərinin rəqabət imkanları əsasında qiymətləndirilməsinə xüsusi ilə üstünlük verilir. Müqayisəli qiymətləndirmədə ölkə üzrə müxtəlif turizm növlərinin müasir vəziyyəti və beynəlxalq turizm hərəkatında yeri nəzərə alınmışdır. Sağalmlıq turizm üzrə qiymətləndirmədə beynəlxalq turizm hərəkatında iştirak edənlərin ümumi göstəricisində 15%. Azərbaycanda isə 250 min nəfərə yaxın olmaqla gəlmə turizmdə 3% yaxındır. İşğaldan azad olunmuş ərazilərdə sağlamlıq turizmdə inkişafının müqayisəli rəqabət imkanlarının təhlilindən aydın olur ki, ayrıca termal turizmin inkişafı ilə yanaşı, tibbi, fitomüalicə və kompleks sağlamlıq xidmətləri göstərilməsi daha çox effektiv olacaqdır. Bu da qeyd olunan turizm növünün inkişafına təkan verəcəkdir.

Müqayisəli tədiqat metodunda regionda ekoloji və açıq hava turizm fəaliyyətlərinin ölkə və beynəlxalq miqyasda təhlilinə görə beynəlxalq turizmin hərəkatının 26%-ə yaxını bu məqsədlə səyahət edənlərdən ibarətdir. Azərbaycanda ekoturizm və açıq hava turizm fəaliyyətləri ümumi turist axınlarının 10%-ə yaxının təşkil edir ki, bu da işğaldan azad olunmuş ərazilər üçün trend ola bilər. Digər tərəfdən regionda rəqabət qabiliyyətlinin yüksəldilməsi üçün Kəlbəcər, Laçın, Ağdərə, Xocavənd, Zəngilan qubadlı rayonunda əlverişli şəraitin olduğin qeyd etmək olar.

Beynəlxalq trendlərin təhlili göstərir ki, mədəni turizm beynəlxalq turizm hərəkatında trend olaraq qalır. Belə ki, beynəlxalq turizmdə mədəni turizm 35%, Azərbaycanda isə 12% təşkil edir. Region üçün mədəni irs turizmin məhsuluna çevrilməsində zəngin resurs potensialın olması, xüsusilə Şuşa, Xocavənd rayonlarında daha geniş imkanlara malikdir. Regionda mədəni turizm təklif oluna mədəni fəaliyyətlər, turizm marşrutları, aktiv mədəni tədbirlərin keçirlməsinin artması ilə müəyyən edilir. Formalaşcaq mədəni turizm məhsullarına mədəni-tarixi, etno-mədəni və eko-mədəni irsi əhatə etməsi ilə mümkündür.

İşğaldan azad olunmuş ərazilərdə TRZ formalaşdırılmasında mövcud resursların qiymətləndilməsində qeyd olunan yanaşmalar onun davamlı inkişafının təmin edilməsinə yönəldilir. Bu istiqamət resursların səmərəli istifadı olunmasını təmin etməyə, formalaşacaq destinasiyalrının ixtisaslaşmasın təmin edəcəkdir.

Regionda TRZ təşkilində əsas elmi yanaşma qeyd olunan qiymətləndirmədə təbii və mədəni irs resurslarının birgə istifadə olunması və daha çəlbedici tərəflərin qabardılmasına üstünlük verilib. Burada ən yaxşı təcrübələrin cəlbedicilik amilləri ilə birgə istifadə edilməsi hesabına TRZ ixtisaslaşması üstün tərəf kimi müəyyən edilir. Bununla yanaşı, beynəlxalq təcrübədə ən yaxşı təcrübələrdən yararlamasına xüsusi önəm verilməsi də TRZ üçün əhəmiyyətli amillərdən sayılır.

İşağdan azad olunmuş ərazilər üzrə TRZ formalaşmasında çox kriteriyalı qiymətləndirmə metodlarından istifadə olunmasının daha yaxşı nəticə yönümlü olmasın müəyyən etmək olar. Hər bir TRZ üçün çox kriteriyalı qiymətkləndirmənin təhlili və qərar vermə analizi əsasında ixtisaslaşma sahəsin müəyyən etməyi təmin edir.

Çoxkriteriyalı qərar vermə analizin aparılması cəlbedici istiqamətləri əhatə etməklə, hər bir TRZ üçün tətbiq sahələri öncədən müəyyən edilir. Bu kriteriyaların müəyyən edilməsi ərazi daxilində mövcud ehtiyatların qiymətləndirlməsin, həmçinin turizm cəlbedicliyinin nəzərə alınmasın təmin etmiş olur. Çoxkriteriyalı qərarvermə analizləri aşağıdakı kimi qruplaşdırmaq olar:

-Təbiətlə bağlı turizm resursları və aktivitiləri;
-Su idman növləri üçün əlverişli imkanların olması;
-Su hövzələrinə yaxınlıq;
-Mikroiqlim resursları və şaquli qurşaqlıq üzrə əlverişli iqlim şəraiti;
-Landşaft ekzotikliyi və cəlbedici təbiət abiədələrinin olması;
-Sağlqmlıq turizm imkanları;
-Qış turizm imkanları;
-Tarixi-arxeoloji və dini irs abidələrinin cəlbedicliyi;
-Mədəni və etno-mədəni irsin turizm cəlbedicilik imkanları;
-Tələbat rayonları, şəhər və işgüzar mərkəzlərə yaxınlıq;
-Nəqliyyat infrastrukturunun inkişafı və əlçatanlığın təmin olunması;
-Turizm növlərinin inkişafında beynəlxalq rəqabət imkanlarının nəzərə alınması;
-Maliyyə mənbələri, invesyiya cəlbediciliyi və gəlirlilik imkanları.

Yuxarıda qeyd olan kriteriyalar təklif olunan hər bir TRZ üçün araşdırılaraq potensial imkanlar müəyyən edilir və müqayisəli qiymətləndirmə və infoqrafik üstünlüklər müəyyən edilir. Bu baxlmdan işğaldan azad olunmuş ərazilərdə TRZ təşkili üçün müqayisılı üstünklüklər nəzərə alınmaqla müəyyən edilir.

Əlavə təqdim olunmuş Cədvəl 1-dən göründüyü kimi işğaldan azad olunmuş ərazilərdə TRZ-in təşkili və ixtisaslaşma sahəsi müxtəlif olmaqla, rəqabət imkanları da ümumilikdə müsbət tendensiya kimi səciyyələnə bilər. Regionun sağalmlıq, ekoloji, mədəni və istirahət əyləncə turizm imkanları xüsusilə rəqabət qabiliyyətli hesab edilir ki, bu da TRZ-lər daxilində klasterlərin formalaşmasına zəmin yaradacaqdır. TRZ-in turizm sahələri üzrə ixtisaslaşması gələcəkdə həmin əraziyə gələn turizm baxımından cəlbediciliyin artılmasına, investiyalar üçün əlavə stimullaşdırıcı amillərin yaranmasına

imkan verəcəkdir.
İşğaldan azad olunmuş ərazilərdə TRZ-lər üzrə ümumi planlaşdırma istiqamətləri təklif olunur ki, bu da mövcud resursların əvvəlcədən ərazi üzrə təminat səviyyəsi və rəqabətli turizm növlərinin inkişafına yönəldilən kompleks tədbirləri əhatə edir. Bu baxımdan TRZ təşkilində üstünlük verilən amilləri aşağıdakı kimi qiymətləndirmək olar:
-TRZ üzrə resurs təminatında çoxkriteriyalı qərar vermə analizlərinin tətbiqi. Burada əsas yanaşma TRZ malik olduqları potensial onalrdan istifadə olunmasının istiqamətləri və rəqabətli turizm növlərinin tətbiqi ilə bağlıdır. Məsələn, Kəlbəcərin İstisu termal mənbələrinin əsasında sağlamlıq turizmin təşkili həm ölkə həm də, region ölkələri miqyasında tələbatın formalaşmasın özündə əks etdirir. Belə ki, termal turizmə olan tələbatın beynəlxalq turizmdə 5-6% təşkil etməsi, ölkədə ümumi müalicə-sağalamlıq turizmində iştirak edənlərin payının 250 min nəfəri əhatə etməsi nəzərə alınmışdır. Həmçinin, ekonometrik yanaşmaları nəzərə alaraq Qlencer prinsipinə görə qoyulan investiyanın dəyər yaratma göstəricisi ilə müəyyənləşdilmişdir. Aparılan təhlillər göstərir ki, İstisu TRZ qoyulan investiyaların gəlirlilik göstəriciləri cəlbedici amillərlən yanaşı, digər sektorların qarşılıqlı inkişafı, əlçatanlığın təmin olunması, kompleks sağlamlıq-müalicə xidmətlərinin yaradılması ilə birbaşa bağlıdır. Buna görə də, İstisu TRZ ayrıca termal turizm deyil, tibbi, fitoturizm imkanlarından istifadə olunması daha çox səmərəli olardı.
Digər bir misal olaraq Zəngilan rayonu üzrə Qaragöl TRZ qeyd etmək olar. Qaragöl TRZ Zəngilan şəhərinin 10 km, Oxçu çay dərəsində yerləşir. TRZ geniş fıstıq və vələs ağacları ilə əlahələn ekzotik landşafta, 1350 m qədər yüksəklik qurşağına malikdir. Çoxkriteriyalı analiz zamanı eko və açıq hava turizm imkanlarının yüksək olmasın qeyd etmək olar. Bununla yanaşı, TRZ daxilində idman təsisləri, parklar, istirahət və işgüzar zonaların təşkili planlaşdırılır. Qaragöl TRZ digər ərazilərdən üstünlükləri çoxkriteriyalı qərar vermə və Qlençer metodu əsasında müəyyən edilmişdir. Burada cəlbedicilik amilləri ilə yanaşı, qoyulan investiyaların əlavə dəyər yaratması nəzərə alınır ki, bu da ekonometrik hesablamalara görə turizmin inkişafının 1% artımı, ümumi iqtisadi inkişafda 0,3% əlavə dəyər yaratmasına imkan verəcəkdir.
Təhlillərdən aydın olur ki, TRZ təşkili onun ixtisaslaşma sahələri ilə yanaşı, rəqabət imakları, turistlərin cəlb edilməsində üstünlüyün təmin ediməsi xüsusi araşdırmalarla müəyyən edilir. Bu təhlillərin əsasın TRZ üzrə qəbul edilən rəqbabət üstünlükləri ilə müəyyənləşir. TRZ üzrə orta rəqabət üstünlüyü indiqatorları tətbiq olunur ki, bu da aparılan çoxkiteriyalı qərarvermə analizi ilə müqayisə olunur. TRZ-də turizm növləri üzrə rəqabət mühitinin formalaşması vahid nominal rəqəm və ya 100% göstiсilərin proqnozları əsasında hesablanır. Buna uyğun olaraq regionda sağlamlıq, qış, istirahət, ekoloji, açıq hava, mədəni, tədbir turizm sahələrinin rəqabət imkanları qiymətləndirilmişdir. Sağalmlıq turizmdə bu göstəricilərin vahid nomila rəqəmə yaxın və çox olması müəyyənləşdirilmişdir. Sağalmlıq turizmdə nəticələr və rəqabət imkanlarının müqayisəsində beynəlxalq trendlər, Azərbaycanda tibbi xidmətlərin ixrac dinamikası əsasında hesablanmışdır.
Qış turizm sahəsində rəqabət imkanları hazırda ölkədə qış turizminin əsas göstəriciləri, beynəlxalq trendlər, cəlbedicilik və əlçatanlıq amilləri əsasında araşdırlmışdır. Xüsusilə qonşu ölkələrin qış turizmdə təqdim etdiyi istiqamətlər, onalrın təşkili, qiymət siyasəti və s. araşdırldıqdan sonra Kəlbəxərdə Dəmirçidam qış turizm kompleksinin təşkilində rəqabət üstünlüyü müəyyən edilir ki, bu

| | |
|---|---|
| | da yaradılacaq infrastrukturun imkanlarından asılı olacaqdır. Eyni zamanda, qış turizmdə ölkədə təqdim olunan xidmətlərin baha olması, gecələmələrin azlığı fonunda regionda qış turizm rəqabətli modeli orta statistik turist yönümlü xidmətlərin olması daha səmərəli hesab edilir. Buan görə də Kəlbəcərin Dəmirçidam qış turizm kompleksinin təşkili rəqabət baxımından vahidə yaxın və ya daha çox olması göstərilmişdir.<br>Planlaşdırlan digər TRZ-də rəqabət imkanlarının müəyyən edilməsində ölkədə turizmin ümumi inkişaf səviyyəsi, bu sahə də baş verən tendensiyalar xüsusi olar araşdırılmışdır. Müəyyən edimişdir ki, işğaldan azad olunan ərazilər üçün nəzərdə tutulan TRZ-də rəqabət imkanları əsasən vahidə yaxın və ya vahiddən çox olmaqla, iqtisadi effektivliyin ekonometrik göstəricilərlə təsdiqlənir. Məsələn, mədəni turizm klsaterləri üçün təqdim edilən destinasiyalar üzrə TRZ-də mədəni irsdən istifadə hazırda ölkə üzrə mədəni turizmdə sənayesinin 15% təşkil etdiyi halda turizm gəlirlərinə təsiri 20%-dən çox, ümumi iqtisadi inkişafda təsiri 6-8% çatır. İşğaldan azad olunmuş TRZ-də isə bu göstərici daha çox ola bilər ki, bu da kütləvi turist axınlarında mədəni irs cəlbedicliyinin üstün olması ilə bağlıdır. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)*<br>Lahiyənin beşinci mərhələsində ümumi işin 20% yerinə yetilmişdir. Cari rüb üzrə nəzərdə tutulmuş elmi tədiqat işi 90% icara olumuşdur. |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | *(burada doldurmalı)*<br>-Resursların qiymətləndilməsində bir neçə metodun təhlili əsasında qərarvermə analizi üzrə indiqatorların müəyyən edilməsi;<br>-TRZ üzrə çox kriteriyalı analiz, reytinq, müqayisəli, infoqrafik qiymətləndirmə əsasında cəlbedici sahələr müəyyən edilmiş və rəqabət üstünülüyü göstərilmişdir;<br>-TRZ-lər daxilində turizm sahələri üzrə ixtisaslaşma və klasterlərin təşkili istiqamətləri ilk dəfə olaraq müəyyənləşdilmişdir. |
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Əsas elmi metodiki yanaşma müqayisə, klaster, infoqrafika, resursların qiymətləndilməsində fəaliyyət indiqatorlarının müəyyən edilməsinə üstünlük verilmiş, TRZ təşkilində iqtisadi və ekonometrik təhlillərdən istifadə olunmuşdur. |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>1. V.S. Dargahov, S.A. Talibov, Q.V. Mammadov, R.İ. Ahmadov, I.I. Muradov. Prospects for the use of balneological and climatic resources of the liberated territories in health tourism. Journ. Geol. Geograph. Geoecology, 32(4), 704-713. https://geology-dnu.dp.ua/index.php/GG/article/view/1064/866 |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)*<br>Yoxdur |

| | |
|---|---|
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Dövlət Turizm Agentliyi, Mədəniyyət Nazirliyi, AMEA akad. H.Ə.Əliyev adına Coğrrafiya İstitutu |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **15** | Sərgilərdə iştirak |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *(burada doldurmalı)*<br>Yoxdur |

**Layihə rəhbərinin imzası ___________________Əhmədov Rəşad İsmayıl oğlu**

**Tarix** ____________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.